# Sevda İbrahimovanın fortepiano əsərlərində ənənəvi musiqi janrlarının təzahürü

**Abbasova Aytən (BMA)**
**Fakultə: Musiqi tarixi və nəzəriyyəsi**
**İxtisas: etnomusiqişünas**
**Kurs: II**
**Elmi rəhbər: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Leyla Zöhrabova**

Sevda İbrahimova bütün yaradıcılığı boyu milli musiqiyə, onun dərin köklərinə bağlı olan sənətkarlardandır. Yaratdığı hər bir əsərdə o, milli musiqiyə xidmət etməsini göstərə bilmişdir. Sənətə pianoçu kimi başlamış Sevda xanım ilk növbədə milli fortepiano yaradıcılığının inkişafına təkan vermişdir. Əsərlərində müraciət etdiyi əsas ənənəvi janrlar muğam, mahnı və təsniflərdir.

Tədqiqatın elmi yeniliyi Sevda İbrahimovanın fortepiano yaradıcılığında ənənəvi musiqi janrlarının hərtərəfli şəkildə tədqiq edilməsindən ibarətdir. Həmçinin bu janrlar əsasında yazılmış pyeslərin özünəməxsus üslub xüsusiyyətlərinin açıqlanması işin əsas elmi yeniliyi sayıla bilər. Bu zəmində bəstəkarın mahnı, təsnif və muğam əsasında yazdığı bir sıra fortepiano işləmələri araşdırılmış və bu sahədə etdiyi nailiyyətləri üzə çıxarılmışdır. Belə ki, bəstəkarın milli musiqi üslubu ilə bağlılığın üzə çıxarılmasında yuxarıda sadaladıqlarımızın ön plana çəkilib araşdırılması çox vacib və önəmlidir. Bu mənada S.İbrahimovanın yaradıcılığının həmin səpkidə öyrənilməsi aktuallıq kəsb edir.

Bəstəkar muğam kimi şifahi ənənəli professional musiqinin vokal-instrumental janrlarından biri olan 10-a yaxın təsniflərin də işləmələrini etmişdir. İşləməsini etdiyi təsniflərin demək olar ki, hamısını müstəqil ad ilə adlandırmışdır.

Ənənəvi musiqi janrlarından olan xalq mahnılarının işləmələrini də işimizə cəlb etmişik. Maraqlı hal odur ki, Sevda İbrahimova xalq mahnı və təsnif işləmələrini həm tək fortepiano, həm də iki fortepiano üçün bəstələmişdir. Daim milli musiqidən bəhrələnən Sevda xanım bütün əsərlərində özünəməxsus orijinal yaradıcılıq üslubuna, dəsti-xəttinə malik olmuşdur. Bu səbəbdən müraciət etdiyimiz mövzunun onun yaradıcılığında xüsusilə böyük əhəmiyyəti vardır.

Beləliklə, dissertasiyada S.İbrahimovanın fortepiano əsərlərində ənənəvi musiqi janrlarından istifadə olunma hər iki sənətin (şifahi ənənəli professional musiqi və xalq musiqisi) təkrarolunmaz milli səciyyəsini daha da dərindən qavramağa, onun rolunu və əhəmiyyətini xarakterizə etməyə imkan verir.